Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.7-ci, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Arif Yusif oğlu Xəlilov 30 saylı Suraxanı birinci, Sevinc Ağahəsən qızı Həsənova 31 saylı Suraxanı ikinci, Rəşad Vilayət oğlu Məmmədov 97 saylı Goranboy – Ağdam – Tərtər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən azad edilsinlər, 68 saylı Cəlilabad kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Adışirin Barat oğlu Kazımov və 107 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Şəhadət Oruc oğlu Orucovun səlahiyyətlərinə isə 2015-ci il noyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin yekunları təsdiq edilənədək müvəqqəti xitam verilsin.

2. Sevinc Ağahəsən qızı Həsənova 30 saylı Suraxanı birinci, Nailə Balabəy qızı Kərimova 31 saylı Suraxanı ikinci, Arzu Sərdar oğlu Ağayev 78 saylı Lerik, 2015-ci il noyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin yekunları təsdiq edilənədək Elşad Şahvələd oğlu Axundov 107 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov